UOT 371

***Ruqiyyə Akif qızı Tağıyeva***
*Gəncə Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müəllimi,*
*fəlsəfə doktoru proqramı üzrə* doktorant

# TOLERANTLIĞIN MÜMKÜN MEYARLARI

***Ругия Акиф гызы Тагиева***
*преподаватель кафедры Изобразительных искусств Гянджинского Государственного Университета, докторант по программе доктора философии*

# ВОЗМОЖНЫЕ КРИТЕРИИ ТОЛЕРАНТНОСТИ

***Ruqiyya Akif Tagiyeva***
*lecturer at the faculty of Fine arts at Ganja State University,*
*doctoral student of the PhD program*

# POSSIBLE CRITERIA OF TOLERANCE

**Xülasə.** Tədqiqatda tolerantlığın mümkün meyarları (ölçü meyarları), onun sosial göstəriciləri müəyyənləşdirilmişdir. İşdə tolerant və intolerant şəxsiyyətləri ayırmağa və onları xarakterizə etməyə cəhd edilmişdir. Göstərilir ki, tolerantlığın mümkün meyarlarını (ölçü meyarlarını), onun sosial göstəricilərini müəyyənləşdirmək çox vacibdir. Pedaqoji nəzəriyyədə tolerantlıq nöqteyi-nəzərdən insanları şərti olaraq tolerant və intolerantlara bölürlər. Müstəsna mövqelər olduqca nadirdir. Hər bir insan həyatında həm tolerant, həm də intolerant hərəkətlər edir. Buna baxmayaraq, tolerant və intolerant davranışa meyllilik şəxsiyyətin sabit xarakterinə çevrilə bilər, bu isə tolerant və intolerant şəxsiyyətləri ayırmağa və onları xarakterizə etməyə imkan verir. Tolerant şəxsiyyət aşağıdakı əlamətlərinə görə müəyyənləşdirilir, dəyərləndirilir: başqalarına meyllilik, güzəşt, səbir, yumor hissi, həssaslıq, inam, altruizm (başqalarına təmənnasız yardım etməyə hazır olma), fərqliliklərə qarşı dözüm, özünə hakim olmaq, xeyirxahlıq, başqalarını mühakimə etməmək qabiliyyəti, humanizm, dinləmə bacarığı, bilgilərə maraq.

***Açar sözlər:*** *tolerantlıq, tolerantlığın meyarları, tolerantlığın sosial göstəriciləri, tolerantlığın əlamətləri, intolerantlıq, dözümsüzlük*

**Резюме**. В исследовании определены возможные критерии (критерии измерения) толерантности и ее социальные показатели. В работе попытались выделить и охарактеризовать толерантных и интолерантных личностей. Показано, что очень важно определить возможные критерии (критерии измерения) толерантности и ее социальные показатели. С точки зрения толерантности в педагогической теории людей условно делят на толерантных и интолерантных. Исключительные позиции встречаются крайне редко. Каждый человек совершает в жизни как толерантные, так и интолерантные действия. Несмотря на это, склонность к толерантному и интолерантному поведению может стать устойчивой чертой личности, которая позволяет различать и характеризовать толерантные иинтолерантные личности. Толерантная личность определяется и ценится следующими признаками: предрасположенность к другим, компромисс, терпение, чувство юмора, чувствительность, доверие, альтруизм (готовность помогать другим бесплатно), терпимость к различиям, самоконтроль, доброта, умение не судить, гуманизм, умение слушать, интерес к знаниям.

***Ключевые слова:*** *толерантность, критерии толерантности, социальные показатели толерантности, признаки толерантности, интолерантность, нетерпимость*

**Summary.** Study identified possible criteria for tolerance (measurement criteria), its social indicators. An attempt was made to distinguish and characterize tolerant and intolerant personalities. It is shown, that it is very important to determine the possible criteria of tolerance (measurement criteria), its social indicators. From the point of view of tolerance in pedagogical theory, people are conventionally divided into tolerant

and intolerant. Exceptional positions are extremely rare. Every human being performs both tolerant and intolerant actions in life. However, the tendency to tolerant and intolerant behavior can become a stable feature of personality, which allows distinguishing and characterizing tolerant and intolerant personalities. Tolerant personality is defined and valued by the following characteristics: inclination to others, compromise, patience, sense of humor, sensitivity, trust, altruism (willingness to help others free of charge), tolerance for differences, self-control, kindness, ability not to judge others, humanism, listening skills, interest in information.

***Key words:*** *tolerance, criteria of tolerance, social indicators of tolerance, signs of tolerance, intolerance.*

Tolerantlıq – olduqca mücərrəd bir anlayışdır, onu elmi metodlarla müşahidə etmək və ölçmək çətindir. Bu baxımdan tolerantlığın mümkün meyarlarını (ölçü meyarlarını), onun sosial göstəricilərini müəyyənləşdirmək çox vacibdir. Q.U. Soldatova, L.A. Şayqerova, O.D. Şarova tərəfindən ailə və məktəbdən başlayaraq cəmiyyətdə yekunlaşan, müxtəlif ictimai qruplara uyğun gələn tolerantlıq meyarları təqdim edilir: hüquq bərabərliyi; qrup və ya cəmiyyət üzvlərinin qarşılıqlı hörməti, müxtəlif sosial qruplara qarşı xoşməramlılıq və dözümlülük; cəmiyyətin bütün üzvlərinin siyasi həyatında iştirak etmək üçün bərabər imkanlar; milli azlıqların mədəni xüsusiyyətlərinin və dillərinin qorunması və inkişafı; kütləvi tədbirlərdə, bayramlarda mümkün qədər çox insanın əhatə olunması (əgər bu, onların mədəni ənənələrinə və dini inanclarına zidd deyilsə); hər bir cəmiyyətdə təmsil olunan bütün mədəniyyətlərin öz ənənələrini davam etmək imkanı; din azadlığı; ümumi problemlərin həllində əməkdaşlıq və həmrəylik; etnikarası, irqlərarası, cinslər arası münasibətlərin ən həssas sahələrində müsbət leksikası [5, s. 9-10]. İngilis tədqiqatçısı B.E. Rierdon, rus tədqiqatçıları tərəfindən əsaslandırılmış tolerantlıq meyarlarına uyğun gələn aşağıdakı tolerantlıq əlamətlərini və onların sosial təzahürlərini müəyyənləşdirdi: irqi, etnik və sosial qadağaların olmaması ilə xarakterizə olunan dil; bütün insanların bərabərliyinə əsaslanan ictimai asayiş; qarşılıqlı hörmətə əsaslanan ictimai münasibətlər; demokratik siyasi proseslər; çoxluq və azlıq təşkil edən əhali ilə yerli əhali arasında tolerant münasibətlər; planlaşdırma və həyata keçirilməsində hər bir maraqlı şəxsin iştirakını əhatə edən sosial tədbirlər, ənənələr; hər bir şəxs üçün öz ənənələrini qorumaq və bayramlarını qeyd etmək imkanı; dini inanclar azadlığı, dini mərasimləri qeyd etmək imkanı; qruplararası əməkdaşlıq [4, s. 22-23]. Deyə bilərik ki, bu sadalanan əlamətlər cəmiyyətdə nə qədər varsa, buna uyğun cəmiyyət də bir o qədər sülh, demokratiya və insan hüquqlarının təmin olunması mühitində inkişaf edir.

Tolerantlığın əlamətlərinin qavranılması onun əksi olan – intolerantlığın və ya dözümsüzlüyün təzahürlərini anlamaqla da əldə edilir. Dözümsüzlük hökmranlığa və məhv etməyə yönəldir; fərqli baxış sahiblərinin mövcud olmasını, onların yaşama hüququnu qəbul etmir; inandırmağa deyil, susdurmağa üstünlük verir. Fikrimizcə, intolerantlığın aşağıdakı təzahürlərini qeyd edə bilərik: təhqir, lağa qoyma, etinasızlıq; etnosentrizm; düşmən axtarışı (bədbəxtlik, problem və sosial problemlər üçün günahı bu və ya digər qrupa ötürmək); təqib, hədə-qorxu, təhdid; ayrı-seçkilik; irqçilik; etnofobiya, dini fobiya (islamofobiya), miqrantofobiya şəklində ksenofobiya; millətçilik; faşizm; şovinizm; imperializm; istismar; dini və mədəni simvolların təhqir edilməsi; dini zülm; sürgün; repressiya, məhv və soyqırım.

Bir çox alimlər tolerantlıq nöqteyi-nəzərdən insanları şərti olaraq tolerant və intolerantlara bölürlər. Müstəsna mövqelər olduqca nadirdir. Hər bir insan həyatında həm tolerant, həm də intolerant hərəkətlər edir. Buna baxmayaraq, tolerant və intolerant davranışa meyllilik şəxsiyyətin sabit xarakterinə çevrilə bilər, bu isə A.T. Asmolovaya görə, tolerant və intolerant şəxsiyyətləri ayırmağa və onları xarakterizə etməyə imkan verir:

1. Özünü tanımaq. Tolerant insanlar özlərinin yaxşı tərəfləri və nöqsanları barədə çox bilirlər. Özlərinə tənqidi yanaşaraq, bütün çətinliklərində başqalarını günahlandırmağa çalışmırlar. İntolerant insan özündə olan çatışmazlıqlardan daha çox üstünlüklərini görür, bu səbəbdən də bütün problemlərdə başqalarını günahlandırmağa meyllənir.

2. Təhlükəsizlik. İntolerant insana həm özü ilə, həm də digər insanlarla birgə, sabit yaşamaq çətindir. O, öz sosial mühitindən və hətta özündən, instinktlərindən qorxur. Davamlı bir təhdid hissi onu izləyir. Tolerant insan adətən özünü təhlükəsiz hiss edir. Bu səbəbdən də digər insanlardan və qruplardan çəkinmir, onlardan özünü qorumağa çalışmır. Təhlükənin olmaması və ya onun öhdəsindən gələ biləcəyinə inam – tolerant şəxsiyyətin formalaşması üçün vacib şərtdir.

3. Məsuliyyət. İntolerant insan, hesab edir ki, baş verən hadisələr ondan asılı deyil, buna görə də ətrafında baş verənlərlə bağlı məsuliyyətdən azad olmağa çalışır. Bu xüsusiyyət hər şeydə başqalarını günahlandırmaq meyli ilə əlaqəlidir və digər qruplara qarşı qərəzli münasibətlərin formalaşmasının əsasında durur. Tolerant insanlar, əksinə, taleyin özlərindən asılı olduğuna əmindirlər. Məsuliyyəti başqalarına yükləmirlər, ancaq özləri daşıyırlar.

4. Müəyyənliyə tələbat. İntolerant insanlar dünyanı iki yerə bölürlər - qara və ağ. Onlar üçün yarımçıq insan yoxdur, yalnız iki növ insan var - yaxşı və pis, həyatda yalnız bir - doğru yol var. Onlar "özününkü" və "yad" qruplar arasındakı fərqləri vurğulayırlar. Nəyəsə neytral yanaşa bilməzlər, baş verənləri ya bəyənir, ya yox. Tolerant insan, əksinə, dünyanı müxtəlifliyi ilə qəbul edir və istənilən mövqeyi, fikri dinləməyə hazırdır.

5. Özünə yönəlmə - başqalarına yönəlmə. Tolerant şəxsiyyət işdə, fantaziyalarında, yaradıcılıq prosesində, nəzəri düşüncələrində daha çox özünə meyllidir. Problemli vəziyyətlərdə tolerant insanlar başqalarını deyil, özlərini günahlandırırlar. Bu cür insanlar intolerant insanlardan fərqli olaraq xarici qurumlara və avtoritetlərə tabe olmaqdan daha çox şəxsi müstəqilliyə can atirlar.

6. İntizam öhdəliyi. İntolerant insan təmizlik, gözəl davranış və nəzakətə həddən artıq əhəmiyyət verir. Onun üçün hər bir sahədə, xüsusən də sosial sahədə qaydanın olması vacibdir. Tolerant insanlar üçün bu keyfiyyətlər o qədər də böyük əhəmiyyət daşımır və arxa plana keçir.

7. Yumor hissi. Yumor hissi və özünə gülmək bacarığı tolerant şəxsiyyətin vacib bir xüsusiyyətidir. Özünə gülə bilən birinin başqalarından üstün olması hissinə ehtiyacı azdır.

8. Avtoritarizm. İntolerant insan üçün sosial iyerarxiya (rütbəcə aşağı olan insanların yuxarı rütbəlilərə tabe olma qaydası) çox vacibdir. İntolerant insan xarici intizamın son dərəcə vacib olduğuna inanır. Güclü bir hakimiyyətə sahib olan nizamlı, avtoritar bir cəmiyyətdəki həyat onu qane edir, tolerant insan əksinə azad, demokratik bir cəmiyyətdə yaşamağı üstün tutur [2, s. 29-31].

Biz isə belə hesab edirik ki, tolerant şəxsiyyətin aşağıdakı əlamətlərini müəyyənləşdirilməliyik: başqalarına meyllilik, güzəşt, səbir, yumor hissi, həssaslıq, inam, altruizm (başqalarına təmənnasız yardım etməyə hazır olma), fərqliliklərə qarşı dözüm, özünə hakim olmaq, xeyirxahlıq, başqalarını mühakimə etməmək qabiliyyəti, humanizm, dinləmə bacarığı, bilgilərə maraq.

Beləliklə, şəxsiyyətin iki inkişaf yolu var: tolerant və intolerant. İntolerant yol özü haqda müstəsna təsəvvürü, məsuliyyəti ətrafdakılara ötürmək istəyi, daima təhlükə hissi, intizama ehtiyac, güclü hakimiyyət istəyi ilə xarakterizə olunur. Digər yol - özünü yaxşı tanıyan və bu səbəbdən başqalarını qəbul edən azad bir insanın yoludur. Başqalarına qarşı müsbət və ətraf aləmə qarşı xeyirxah münasibət özünə olan yaxşı münasibət ilə uzlaşır.

**Problemin aktuallığı.** Ümumbəşəri və milli dəyərlərə əsaslanan tərbiyə yalnız pedaqoji problem kimi deyil – həm də cəmiyyətin inkişaf problemi baxımından həyati əhəmiyyət kəsb edir. Şəxsiyyətin mühüm dəyərlərinin təməli təlim-tərbiyə prosesində qoyulduğundan, məhz kiçikyaşlı məktəblilərdə tolerantlığın formalaşdırılması probleminin həlli ümumtəhsil müəssisələrində tolerantlığın formalaşması üçün xüsusi təşkil olunmuş prosesdən kənarda qala bilməz.

**Tədqiqatın elmi yeniliyi.** Kiçik məktəb yaşının tolerantlıq tərbiyəsi üçün şəxsiyyətin malik olmalı xüsusiyyəti kimi həssaslığı əsaslandırılmış, kiçikyaşlı məktəblilərdə tolerantlığın ölçü kriteriyalarına aydınlıq gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın materiallarından kiçikyaşlı məktəblilərdə tolerantlıq tərbiyəsi üzrə çoxkomponentli, mərhələli eksperimental tədqiqatın həyata keçirilməsində, uşaqlarda tolerantlıq tərbiyəsi ilə bağlı ibtidai sinif müəllimlərinin hazırlanmasına dair təlimatların tərtibində istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası. / A.N. Abbasov. - Bakı: Mütərcim,- 2016.- 165 s.

2. Асмолов, А.Т. Формирование установок толерантного сознания как теоретическая и практическая задача // Мы – сограждане / Под ред. Л.И. Селивановой. - Москва: Бонфи, -2002. - 270-278 с.

3. На пути к толерантному сознанию / Отв. Ред. А.Г. Асмолов. – Москва: Смысл, -2000. - 255 с.

4. Риэрдон, Б.Э. Толерантность-дорога к миру / Б.Э. Риэрдон, - Москва: ЮНЕСКО, - 2001. - 304с.

5. Солдатова, Г.У. Жить в мире с собой и другими: Тренинг толерантности для подростков / Г.У. Солдатова, Л.А. Шайгерова, О.Д. Шарова. - Москва: Генезис, -2001. -112 с.

**E-mail:** abayramova@ranbler.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **Ş.T. Tağıyev**
*ped.ü.fəls. dok.* **T.Ə. Nəbiyeva**

**Redaksiyaya daxil olub:** 27.04.2021.